**Azərbaycan Universitetinin 25.10.2023-cü il tarixli,**
**02 saylı Elmi Şurasının qərarı ilə təsdiq edilmişdir.**

# Azərbaycan Universitetində Akademik Dürüstlük və Etika Siyasəti

**Təsdiq edirəm: _____________ Rektor S.N.Əliyeva**

**Razılaşdırılıb: _____________ Keyfiyyət Təminatı Şöbəsi müdiri L.Abasova**

**Razılaşdırılıb: ______________ Baş hüquqşünas P.S. Qurbanov**

**Bakı-2023**

## AZƏRBAYCAN UNİVERSİTETİNDƏ AKADEMİK DÜRÜSTLÜK VƏ ETİKA SİYASƏTİ

### I. ÜMUMİ MÜDDƏALAR

**1.1.** Akademik Dürüstlük və Etika Siyasəti *(bundan sonra* Siyasət) Azərbaycan Universitetində *(bundan sonra* Universitet) akademik dürüstlük və etika məsələlərinə ədalətli və şəffaf yanaşılmasını təmin etmək üçün hazırlanmışdır.

**1.2.** Siyasət Azərbaycan Respublikasının elm və ali təhsil sahəsində normativ-hüquqi aktlarına, Universitetin Nizamnaməsinə, Elmi Tədqiqat Strategiyasına və beynəlxalq akademik etika standartlarına uyğun hazırlanmışdır.

**1.3.** Siyasətin həyata keçirilməsinin əsas məqsədi keyfiyyətli mütəxəssis kadrların hazırlığı ilə yanaşı, Universitetin akademik missiyasının müvafiq yerli normativ qanunvericilik (Mülki Məcəllə, Əqli mülkiyyətin qorunmasına dair Qanun və digər), qayda və beynəlxalq öhdəliklərə (Bolonya Prosesinin tövsiyələri) uyğun yerinə yetirilməsinə təminat yaratmaqdır.

**1.4.** Universitetdə akademik dürüstlük akademik prosesin bütün iştirakçılarına aid olan və tədris, qiymətləndirmə zamanı şəxsi dürüstlüyü təşviq edən prinsiplər və dəyərlər toplusu kimi qəbul edilir.

**1.5.** Akademik etik siyasətin tərkib hissəsi olan akademik dürüstlük, təhsilin bütün səviyyələrində Universitetin ümumi mədəniyyətinin ayrılmaz elementi sayılır və təhsilalanlar, professor-müəllim heyəti və inzibati işçilər daxil olmaqla bütün Universitet üzvləri tərəfindən ona riayət edilməsi mütləqdir.

**1.6.** Akademik etika və dürüstlüyün pozulmasının müxtəlif üsul və yolları mövcuddur, o cümlədən: Plagiat, Sövdələşmə, Aldatma və qiymətləndirilən işin məlumatlarının saxtalaşdırılması, qiymətləndirilən işlərə cavabların qeyri-hüquqi yollarla alınması, məlumat və ya qeyri-leqal texnologiya və cihazlardan sui-istifadə.

**1.7.** Cari Siyasət müvafiq dəyər və prinsiplərə əsaslanan və özündə Anti-Plagiatın təminat üsulları, plagiatla mübarizə formaları və plagiatdan faydalanan şəxslərə qarşı cəza prosedurlarını ehtiva edir. Plagiat istisna olmaqla akademik dürüstlük və etikanın pozulmasının digər növləri əsasən tədris və imtahan prosesində müşahidə olunduğuna görə bu kimi hallar, onlarla mübarizə formaları və cəza prosedurları tədris prosesini tənzimləyən müvafiq Qaydalar və Təlimatlarda öz əksini tapır.

### II. AKADEMİK ETİK SİYASƏTİN DƏYƏR VƏ PRİNSİPLƏRİ

**Akademik Etika Siyasəti**

Azərbaycan Universitetinin Akademik Etika Siyasəti akademik qurumlar üçün əsas rol oynayan vacib bir mexanizm olaraq Universitetin əməkdaş və tələbələri tərəfindən aparılan tədqiqatların və fəaliyyətlərin etik standartlara uyğun həyata keçirilməsini tələb və təmin edir. Bu Siyasətin əsas məqsədi tədqiqatın dürüstlüyünü qorumaq, tədqiqatda iştirak edən şəxslərin hüquqlarını müdafiə etmək və bütün fəaliyyətlərin etik dəyər və qaydalara uyğun aparılmasına nəzarət etməkdir.

Etika siyasətinin prinsipləri əsasında tədqiqat təklifləri nəzərdən keçirirlir və onların etik standartlara uyğun olub-olmadığı qiymətləndirilir. Bu prosesə iştirakçılar üçün risklərin qiymətləndirilməsi, razılığın alınması, məxfilik və gizliliyin qorunmasının təmin edilməsi daxildir.

**Akademik dürüstlük** akademik fəaliyyətin bütün sahələrində məsuliyyətli və dürüst davranmağı tələb edən, keyfiyyətli təhsilin əsasını təşkil edən akademik camiyə üçün ən fundamental dəyərdir.

Akademik dürüstlük istənilən şəraitdə altı əsas prinsipə sadiqliyi nəzərdə tutur: dürüstlük, güvən, ədalət, hörmət, məsuliyyət və cəsarət.

**Dürüstlük** - Akademik dürüstlüyün təməl prinsipidir. Bu dəyər yazılı və şifahi işlərdə istifadə olunan fikirlərin mənbələrinin düzgün göstərilməsində və müəllimlər tərəfindən tələbə işlərinin obyektiv şəkildə qiymətləndirilməsində özünü göstərir.

**Güvən** - Tələbələrin fəaliyyətinin dürüstlüyünə inanılması akademik dürüstlüyün təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Bu prinsip tədris prosesində gözləntilərin aydın ifadə edilməsi və qiymətləndirmənin şəffaf aparılması yolu ilə təmin edilir.

**Ədalət** - Akademik mühitdə ayrı-seçkiliyin və himayədarlığın istisna edilməsini tələb edir. Mövcud qaydalar Universitet fəaliyyətinin bütün mərhələlərində ardıcıl və ədalətli şəkildə tətbiq olunmalıdır.

**Hörmət** - Tələbələr, akademik və inzibati heyət tədqiqat və tədris proseslərində fəal iştirak etməklə, tapşırıq və öhdəliklərini vaxtında yerinə yetirməklə özlərinə və digərlərinə cəmiyyətdə qəbul edilmiş etik davranış qaydaları çərçivəsində münasibət göstərirlər. Professor-müəllim heyəti isə tələbələrin fikirlərini ciddi qəbul etməklə, onları fərd kimi dəyərləndirməklə, ideyalarının inkişafına dəstək verməklə, işləri barədə obyektiv, dürüst və tam rəy verməklə, həmçinin onların perspektiv və məqsədlərini nəzərə almaqla hörmət göstərmiş hesab olunur.

**Məsuliyyət** - Akademik cəmiyyətin bütün üzvləri – tələbələr, müəllimlər, işçilər və rəhbərlik – Universitetin akademik bütövlüyünün qorunmasına görə qarşılıqlı məsuliyyət daşıyırlar. Məsuliyyətli davranış düzgün olmayan hallara etiraz etməyi, mənfi təsirlərə qarşı durmağı və müsbət nümunə göstərməyi əhatə edir.

**Cəsarət** - akademik mühitin hər bir üzvünün çətinliklərdən çəkinmədən cəmiyyət tərəfindən qəbul olunmuş etik prinsip və dəyərlərinə uyğun hərəkət etməsini ifadə edir.

Siyasət aşağıdakı ümumi prinsiplər əsasında həyata keçirilir:

- **Vicdanlılıq** – tədris prosesində bütün iştirakçıların öz vəzifələrini tam və dürüst şəkildə yerinə yetirməsi;
- **Müəllif hüquqlarının qorunması** – qiymətləndirilən işlərdə başqasının fikirlərinin düzgün təqdim olunması, mənbələrin göstərilməsi və müəlliflik hüququ olan əsərlərin qorunması;
- **Şəffaflıq və hesabatlılıq**– tələbələr və müəllimlər arasında açıq məlumat mübadiləsi və qarşılıqlı etimadın təmin olunması;
- **Hüquq və azadlıqlara hörmət** – akademik heyətin hər bir üzvünün fikir və mövqeyini sərbəst ifadə etmək hüququ;
- **Bərabərlik** – Universitet cəmiyyətinin bütün üzvlərinin bu siyasətin qaydalarına riayət etməkdə və yol verilmiş pozuntulara görə bərabər məsuliyyət daşıması.
- **Elmi azadlıq və məsuliyyət** – elmi fəaliyyətin sərbəst aparılması hüququ ilə yanaşı, etik normalara və akademik dürüstlük prinsiplərinə riayət etmə öhdəliyini ifadə edir.

## III. SİYASƏTİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

### 3.1. Siyasətin əsas məqsədləri:

- Akademik dürüstlük və etika siyasətinə riayət edilməsinin zəruri olduğunu Universitet heyətinə aşılamaq;
- Universitet heyəti arasında akademik dürüstlük mədəniyyətini formalaşdırmaq və icrasını təmin etmək.

### 3.2. Siyasətin əsas vəzifələri:

- ATM-də mütəxəssis hazırlığı üzrə akademik fəaliyyətlərin, o cümlədən tədris və elmi tədqiqat işlərinin keyfiyyətinin təmin olunmasını tənzimləmək;
- Universitetin fəaliyyətinin bütün səviyyələrində akademik dürüstlüyün və etikanın təmin edilməsi üçün şərait yaratmaq;
- akademik dürüstlüyün və etikanın pozulması hallarının qarşısını almaq.

## IV. AKADEMİK ETİKA SİYASƏTİNƏ TƏMİNAT ALƏTLƏRİ

Tədqiqatlara nəzarətlə yanaşı, bu siyasət həmçinin **plagiat** və ya **məlumatların saxtalaşdırılması** kimi akademik qeyri-etik davranışlarla bağlı məsələləri də əhatə edir. Siyasət etik fikir ayrılıqların həlli üçün bir platforma təqdim edir və tədqiqatçılara mürəkkəb vəziyyətlərdə necə davranmalı olduqları barədə rəhbərliyi təmin edir.

Azərbaycan Universitetinin Etika Siyasəti öz fəaliyyəti ilə məsuliyyət, etibar və şəffaflıq mədəniyyəti formalaşdırır və bununla da biliklərin sosial cəhətdən məsuliyyətli və etik şəkildə inkişafına töhfə verir.

Universitetdə akademik etik siyasətin icrası Universitetin struktur bölməsi olan **Elm şöbəsi tərəfindən** həyata keçirilir.

Elm şöbəsinin əsas vəzifələrinə aşağıdakılar da daxildir:

- Siyasətə uyğun olaraq tədqiqat təkliflərinin qiymətləndirilməsi və təsdiqi;
- Etik qaydalara riayət olunmasının təmin edilməsi;
- Tədqiqat və akademik fəaliyyətlərlə bağlı müəllim və tələbələrə məsləhət verilməsi.

### 4.1. Etika Təlimləri və Seminarlar

Etik davranışlar barədə məlumatlılığı daha da artırmaq məqsədilə, şöbə tərəfindən tədqiqat etikası üzrə seminarlar təşkil edilir. Seminarların əsas məqsədi tədqiqat zamanı tez-tez rast gəlinən etik problemlər – məlumatların dürüstlüyü, plagiat və iştirakçıların məxfiliyinin qorunması kimi mövzularda iştirakçılara istiqamət verməkdir. Eyni zamanda Universitet üzrə etik tədqiqat və praktik mədəniyyəti yaratmaqdır.

### 4.2. Məsləhət Xidmətləri

Şöbə tədqiqat zamanı etik dilemma ilə üzləşən müəllim və tələbələr üçün məsləhət xidmətləri təqdim edir. Bu məsləhətlər, məsələn həssas məlumatlarla işləmək, maraqlar toqquşması ilə bağlı vəziyyətləri idarə etmək və gözlənilməz risklərlə bağlı qərar vermək kimi hallarda ən yaxşı yanaşmaların və qərar qəbuletmə proseslərinin aydınlaşdırılmasına kömək edir.

### 4.3. Koordinasiyanın təmin edilməsi

Şöbə, Universitetin digər bölmələri ilə akademik sahədə koordinasiya və kommunikasiyanı təmin edir. Bu, yeni və ortaya çıxan etik çağırışlara cavab verməyə kömək edir və tədqiqatçılara ehtiyac duyduqları rəhbərliyi təmin edir.

### 4.4. Süni intellektdən istifadə

Universitetdə təhsilalanlar və əməkdaşlar süni intellekt alətlərindən (məsələn, ChatGPT, Grammarly, Copilot DeepSeek və digər oxşar sistemlərdən) istifadə edə bilərlər, lakin bu istifadənin akademik dürüstlük prinsiplərinə uyğun olması tələb olunur.

Aşağıdakı hallarda AI istifadəsi qəti qadağandır və akademik qayda pozuntusu sayılır:

- süni intellekt tərəfindən yaradılmış mətnin müəllifin öz işi kimi təqdim edilməsi;
- süni intellekt vasitəsilə hazırlanmış elmi işlərin müəlliflik hüququnun mənimsənilməsi;
- süni intellektdən istifadə faktının gizlədilməsi (tələb olunduğu hallarda).

AI alətləri aşağıdakı məqsədlər üçün istifadə oluna bilər, lakin həmişə müəllifin öz töhfəsi ilə birləşdirilməlidir:

- dil redaktəsi;
- strukturun yaxşılaşdırılması;
- ideyaların inkişafı üçün yardımçı vasitə kimi istifadə;

Süni intellektdən istifadə halları tələb olunduqda işdə qeyd edilməlidir.

## V. AKADEMİK SAXTAKARLIQ VƏ PLAGİAT ANLAYIŞLARI

**Akademik saxtakarlıq aşağıdakı halları əhatə edir:**

- plagiat;
- özünəplagiat (self-plagiarism);
- məlumatların saxtalaşdırılması və ya uydurulması;
- müəlliflik hüquqlarının pozulması;
- icazəsiz köməkdən istifadə;
- akademik sənədlərin saxtalaşdırılması.

5.1. Plagiat dedikdə digər müəlliflərin ideya, mətn, nəticə və ya məlumatlarının müvafiq istinad göstərilmədən qismən və ya tam mənimsənilməsi başa düşülür.

5.2. Özünəplagiat əvvəl dərc olunmuş elmi işlərin müvafiq istinad göstərilmədən yenidən təqdim edilməsi hesab olunur.

### 5.3. PLAGİAT NƏDİR?

- müəllifliyi təsdiq edilmədən və/və ya mənbə göstərilmədən digər mənbələrdən materialların qismən və ya tam sahiblənməsi;
- müvafiq durğu işarələrindən (sitatlardan) istifadə etmədən və/və ya mənbəni göstərmədən mənbəyə sitat gətirmək;
- mənbəni göstərmədən mənbənin tərcüməsini vermək;
- müəllifə istinad etmədən başqasının ideyalarından və ya arqumentlərindən istifadə etmək;
- başqası tərəfindən tam və ya qismən yazılmış yazılı işi sahiblənmək;
- internetdən götürülmüş hər hansı işi, tezisi təqdim etmək;
- tamamlanmış hər hansı bir işi başqaları üçün yeni tapşırıq kimi təqdim etmək.

## VI. PLAGİATLA MÜBARİZƏ ÜSUL VƏ VASİTƏLƏRİ

Universitetdə yerinə yetirilən bütün növ akademik elmi tədqiqat, kitab, dərslik, dərs vəsaitlərinin, magistr dissertasiyalarının hazırlanması zamanı müəlliflərdən beynəlxalq elmi etika və akademik dürüstlük prinsiplərinin qəbulu və onlara ciddi şəkildə riayət olunması tələb edilir. Akademik dürüstlük və etikanın təmin edilməsi məqsədilə 2019-cu ildən etibarən plagiat yoxlanışları Universitetin əməkdaşlıq etdiyi ***Strike Plagiarizm*** şirkətinə məxsus olan StrikePlagiarism.com platforması vasitəsilə aparılır.

Əsərlərini kafedrada müzakirəyə təqdim etmək üçün müəllifdən tələb olunan sənədlər siyahısına StrikePlagiarism.com platformasından Elm şöbəsi tərəfindən əldə edilmiş hesabat forması da daxildir.

Yerinə yetirilən işlər üzrə akademik dürüstlüyün qorunması tələbləri aşağıdakı kimi müəyyən edilir:

- Magistr dissertasiyaları üçün:
  “Oxşarlıq əmsalı 1 (OƏ1)” üzrə 15 faiz, “Oxşarlıq əmsalı 2 (OƏ2)” üzrə 5 faiz.
- Monoqrafiyalar üçün:
  “Oxşarlıq əmsalı 1 (OƏ1)” üzrə 10 faiz, “Oxşarlıq əmsalı 2 (OƏ2)” üzrə 5 faiz.
- Dərslik, dərs vəsaitləri üçün:
  “Oxşarlıq əmsalı 1 (OƏ1)” üzrə 15 faiz, “Oxşarlıq əmsalı 2 (OƏ2)” üzrə 7 faiz.
- Elmi məqalələr üçün:
  “Oxşarlıq əmsalı 1 (OƏ1)” üzrə 10 faiz, “Oxşarlıq əmsalı 2 (OƏ2)” üzrə 5 faiz.

- Tezislər üçün:

“Oxşarlıq əmsalı 1 (OƏ1)” üzrə 10 faiz, “Oxşarlıq əmsalı 2 (OƏ2)” üzrə 5 faiz.

## VII. PLAGİAT AŞKAR EDİLMƏSİ HALINDA GÖRÜLƏCƏK TƏDBİRLƏR

**7.1.** Siyasətin tələblərini müəllifə və ya rəyçiyə izah etmək və ya qeyri-etik davranış halında onun aradan qaldırılması barədə xəbərdarlıq etmək;

**7.2.** Müəllifə, elmi məsləhətçiyə, müəllifin institusional rəhbərinə vacib düzəliş və ya hərəkətlərin edilməyəcəyi təqdirdə görüləcək ciddi inzibati tədbirlər barəsində bildiriş göndərmək;

**7.3.** Universitetin rəsmi resurslarında müvafiq məqalə və ya müəllifə münasibətdə dərc prosesini dayandırmaq və müəllifə müəyyən və ya qeyri-müəyyən müddətə qadağa qoymaq.

## VIII. Tərəflərin hüquq və vəzifələri

### 8.1. Təhsilalanların hüquq və vəzifələri

Təhsilalanın hüquq və vəzifələri aşağıda qeyd edilmişdir:

**8.1.1. Hüquqlar:**

- Tədris prosesində öz fikirlərini sərbəst ifadə etmək və elmi, tədris xarakterli məlumat və ideyalara çıxış əldə edərək onları paylaşmaq hüququ;
- Bu Siyasətin tələblərinin pozulması ilə bağlı əsassız ittihamlardan qanuni vasitələrlə müdafiə olunmaq hüququ.

**8.1.2. Vəzifələr:**

- Akademik tapşırıqları və elmi-tədqiqat işlərini yerinə yetirərkən akademik dürüstlük prinsiplərinə əməl etmək;
- Etibarlı məlumat mənbələrindən istifadə etmək;
- Digər müəlliflərin ideyalarına düzgün istinad etməklə, öz fikirləri əsasında keyfiyyətli yazılı elmi işlər hazırlamaq;
- Qiymətləndirməyə cəlb olunan bütün işləri müstəqil şəkildə icra etmək;
- Daxili qaydalara riayət etmək.

### 8.2. Professor-müəllim heyətinin hüquq və vəzifələri

Professor-müəllim heyətinin hüquq və vəzifələri aşağıda qeyd edilmişdir:

**8.2.1. Hüquqlar:**

- Tədris prosesinin bütün iştirakçılarından akademik dürüstlüyün əsas prinsiplərinə əməl olunmasını tələb etmək;
- Tədris və elmi fəaliyyət zamanı fikir və mövqelərini sərbəst ifadə etmək, elmi məlumat və ideyaları əldə etmək və yaymaq;
- Tələbələrin tədris və elmi-tədqiqat işlərini akademik dürüstlük meyarları əsasında yoxlamaq və obyektiv qiymətləndirmək.

**8.2.2. Vəzifələr:**

- Akademik dürüstlük prinsiplərinə əməl etmək;
- Tələbələrdə elmi-tədqiqat bacarıqlarını formalaşdırmaq, yaradıcılıq və tədqiqata maraq yaratmaq;
- Etibarlı mənbələrin seçilməsi və istifadəsi ilə bağlı tələbələrə metodiki dəstək göstərmək;
- İstinadların və istifadə olunmuş ədəbiyyat siyahısının düzgün tərtib olunmasını öyrətmək;
- Universitetdə müəyyən edilmiş qiymətləndirmə meyarlarına ciddi riayət etmək və akademik nəzarəti təmin etmək;
- Daxili qaydalara riayət etmək.

### 8.3. İnzibati heyətin hüquq və vəzifələri

İnzibati heyətin hüquq və vəzifələri aşağıda qeyd edilmişdir:

**8.3.1. Hüquqlar:**

- Öz səlahiyyətləri çərçivəsində akademik dürüstlük prinsiplərinin təmin olunması üçün tədqiqat və tədris proseslərinin bütün iştirakçıları tərəfindən icrası zəruri olan aktları təqdim etmək;
- Səlahiyyətlərinə aid məsələlərin müzakirəsi və həlli məqsədilə Universitetin hər hansı struktur bölməsinin fəaliyyətində iştirak etmək;
- Bu Siyasətin prinsiplərinin inkişaf etdirilməsi ilə bağlı təklifləri Universitetin Elmi Şurasının müzakirəsinə təqdim etmək.

**8.3.2. Vəzifələr:**

- Akademik dürüstlük prinsiplərinə riayət etmək;
- Siyasətin müddəalarına edilən dəyişikliklər və aşkar olunan pozuntular barədə tədqiqat və tədris proseslərinin iştirakçılarını vaxtında məlumatlandırmaq;
- Universitetin mövcud sənədlərini keyfiyyətli şəkildə hazırlayıb vaxtında icra etmək;
- Universitetin əməkdaşları və tələbələri ilə münasibətlərdə obyektivlik və düzgünlük nümayiş etdirmək;
- Akademik dürüstlüyün pozulması halları ilə bağlı yaranan münaqişəli vəziyyətlərin həllini təmin etmək;
- Bu Siyasətin hər hansı göstərişinin pozulmasının qarşısını almaq və onun düzgün icrasını təmin etmək;
- Elm şöbəsi tərəfindən bu Siyasətdə əks olunan prinsiplərinin pozulması hallarının sistemli və dəqiq uçotunu aparmaq.

## VIII. PROSEDURLAR VƏ MƏSULİYYƏT

### 9.1. Prosedurlar:

- Tədqiqat və Təhsil proseslərində iştirak edən şəxslər akademik dürüstlük prinsiplərinin pozulmasına görə həm mənəvi, həm də intizam məsuliyyəti daşıyırlar;
- Akademik dürüstlük prinsiplərinin pozulması baş verdikdə, pozuntunu müəyyən edən şəxs sübutlarla birlikdə Universitet rektoruna ərizə ilə müraciət edir;
- Akademik dürüstlük prinsiplərinin pozulması barədə ərizə 24 saat ərzində hazırlanır, Ümumi şöbədə qeydiyyatdan keçdikdən sonra baxılması üçün rektor tərəfindən növbədənkənar Elmi Şura iclası çağırılır və müraciətin verildiyi gündən etibarən beş iş günü ərzində qərarın qəbul olunmasına dair əmr verilir.
- Apellyasiya şikayətinə dair qərar üç iş günündən gec olmayaraq qəbul edilməlidir.
- Rəhbərlik apellyasiya şikayətinə təqdim edilmiş materiallara obyektiv baxılmasına görə məsuliyyət daşıyır.

### 9.2. Məsuliyyət

9.2.1. Akademik dürüstlük prinsiplərinin pozulması intizam məsuliyyəti yaradır.

9.2.2. Pozuntu hallarına görə aşağıdakı tədbirlər tətbiq edilə bilər:

- xəbərdarlıq;
- akademik işin yenidən işlənməsi;
- qiymətin ləğvi;
- elmi işin müdafiəyə buraxılmaması;
- müvafiq intizam tədbirləri.

9.2.3. Təkrar və ağır pozuntular mövcud qanunvericiliyə uyğun daha sərt məsuliyyət tədbirlərinə səbəb ola bilər.

## IX. NƏTİCƏ

10.1. Akademik dürüstlük və etika - akademik fəaliyyətin bütün formalarında icra olunan müvafiq vəzifələrə qarşı məsuliyyətli və dürüst olmaqla yanaşı, təhsil və elmi tədqiqatın keyfiyyətini təmin edən və tənzimləyən fundamental akademik dəyərdir.

10.2. Universitetdə akademik dürüstlük və etika akademik prosesin hər bir iştirakçısına aid olan, tədrisdə və qiymətləndirilmədə şəxsi dürüstlüyü təşviq edən dəyər və prinsiplər toplusu kimi qəbul edilir.

10.3. Akademik dürüstlük və etika təhsilin bütün səviyyələrində Universitetin ümumi mədəniyyətinin ayrılmaz hissəsi kimi qiymətləndirilir, təhsilalanlar (təhsilin bütün pillələri üzrə), professor-müəllim və inzibati heyət də daxil olmaqla Universitetin bütün üzvlərinə şamil edilir.

10.4. İstənilən formada qeyri-dürüstlük Universitetin dəyər sisteminə zidd olduğu üçün sistemli şəkildə qarşısı alınır.

## YEKUN MÜDDƏALAR

Bu Siyasət Universitetin Elmi Şurasının qərarı ilə təsdiq edildiyi tarixdən qüvvəyə minir. Siyasətə dəyişiklik və əlavələr müvafiq qaydada həyata keçirilir.